# "Hakan Foods" şirkəti imtahanda 700 bal toplamış Leyli Əhmədovaya təqaüd verəcək

**2001-ci ildən "Kral" brendi ilə halal və ekoloji təmiz ət məhsulları istehsal edən "Hakan Foods" şirkətinin prezidenti Yavuz Həsənov qəbul imtahanında 700 bal toplamış Bakı şəhəri, Nizami rayonu, 214 saylı tam orta məktəbin şagirdi Leyli Əhmədova və ailə üzvləri ilə görüşüb.**



Görüşdə cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf siyasətinin bütün sahələrdə olduğu kimi, təhsil sektorunda da əhəmiyyətli uğurların əldə olunmasına səbəb olduğunu diqqətə çatdıran Yavuz Həsənov Leyli Əhmədovanın qəbul imtahanında maksimum 700 bal toplamasını təhsilimizin inkişafının göstəricisi olduğunu bildirib.

Məlumat üçün bildirək ki, Leyli Əhmədovanın qardaşı da 3 il əvvəl imtahanda 700 bal toplamışdı.

Yavuz Həsənov bu faktı əsas gətirərək vurğulayıb ki, bir ailənin 2 üzvünün 700 bal toplaması nadir hadisələrdən biridir: "Azərbaycan cəmiyyəti sizin ailənizin üzvlərinin nailiyyətləri timsalında təhsilin inkişafına göstərilən diqqət və qayğını gördü. Düşünürəm ki, sizin bu uğurlarınız bir çox ailələrin övladları üçün stimul olacaq. Onlar da çalışacaqlar ki, təhsil və digər sahələrdə uğurlu nəticələr əldə etsinlər".

Görüşə görə təşəkkürünü bildirən Leyli Əhmədovanın anası Mahirə Əhmədova ölkəmizdəki ictimai-siyasi sabitliyə, təhsilin inkişafı üçün yaradılan şəraitə görə cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü bildirib.

Görüşdə Leyli Əhmədovaya hədiyyə təqdim edilib və şirkət tərəfindən ona təhsilinin davamlı stimullaşdırılması üçün təqaüd veriləcəyi bildirilib.

Qeyd edək ki, "Hakan Foods" şirkəti cənab Prezident İlham Əliyevin sahibkarlara sosial məsuliyyət çağırışını dəstəkləyir və bu istiqamətdə addımlar atmaqda davam edir.

# "Veysəloğlu Qrup" intellektual yarış keçirib




"Veysəloğlu" Şirkətlər Qrupu və SABAH qruplarının birgə təşkilatçılığı, Təhsil Nazirliyinin tərəfdaşlığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunan universitetlərarası "Nə? Harada? Nə zaman?" intellektual yarışı keçirilib.

Turnirdə 10 ali təhsil müəssisəsində 20 komanda olmaqla, ümumilikdə 120 tələbə mübarizə aparıb. Gərgin mübarizə şəraitində keçən "Nə? Harada? Nə zaman?" intellektual yarışın qalibi Bakı Mühəndislik Universitetini təmsil edən "Promotey" komandası olub. Adıçəkilən komanda bütün suallara rəqiblərindən daha çox cavab verməyi bacarıb və turnirin ən güclüsü seçiliblər. Müvafiq olaraq 2-ci və 3-cü yerlərə isə Azərbaycan Dillər Universitetini təmsil edən "Fenomen" və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Fətəlity" komandaları layiq görülüb.

Qeyd edək ki, 1-ci, 2-ci və 3-cü yerin qaliblərinə sertifikatlar, medallar və kubok təqdim edilib, həmçinin Teas Press nəşriyyat evindən bestseller kitablar hədiyyə olunub. Bundan başqa turnirin çempionu "Promotey" komandası 2500 manat, ikinci yerin sahibi "Fenomen" 1500 manat, üçüncü yerə layiq görülən "Fətəlity" isə "Veysəloğlu" Şirkətlər Qrupu tərəfindən 1000 manat pul mükafatı qazanıb.

Orxan Vahidoğlu,
*"İki sahil"*

# "Narkomaniyaya "yox" deyək"

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan narkomaniyaya və QİÇS-in yayılmasına qarşı uğurlu siyasəti dəstəkləmək məqsədilə yaradılan "Antinarkomaniya Sahəsində Gənclərin Təşəbbüsü" İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi qrupunun dəstəyi ilə "Vətənini, özünü, ailəni düşün - sağlam yaşa!" adlı layihə çərçivəsində Quba şəhər Hacıbaba Əliyev adına 1 nömrəli tam orta məktəbində, Zaur Cəfərov adına şəhər 3 nömrəli tam orta məktəbində, İsaak Xanukov adına Qırmızı qəsəbə 1 nömrəli tam orta məktəbində, Xaçmaz rayonunun Akademik Zərifə Əliyeva adına şəhər 8 nömrəli məktəb-liseyində, şəhər 9 nömrəli tam orta məktəbində və A.Səlimov adına şəhər 7 nömrəli tam orta məktəbində "Narkomaniyaya "yox" deyək" devizi altında maarifləndirici tədbirlər keçirmişdir.



Tədbirlərdə "Antinarkomaniya Sahəsində Gənclərin Təşəbbüsü" İctimai Birliyinin, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Quba və Xaçmaz rayon komissiyalarının nümayəndələri, məktəb direktorları, çoxsaylı müəllimər və şagirdlər iştirak etmişlər.

Çıxış edənlər "ağ ölüm" adlandırılan narkomaniya və onun fəsadları, narkomaniyadan və QİÇS-dən qorunmağın yolları və s. barədə ətraflı məlumat verməklə, dövlətimizin hər bir vətəndaşa göstərdiyi qayğıdan, gələcəyimiz olan gənclərin sağlam böyüməsinin vacibliyindən danışmışlar.

Tədbirlər çərçivəsində "Antinarkomaniya Sahəsində Gənclərin Təşəbbüsü" İctimai Birliyinin nümayəndələri tərəfindən müəllim və yuxarı sinif şagirdlərinə İctimai Birlik tərəfindən hazırlanmış maarifləndirici buklet, dəftərxana ləvazimatları (qələm, karandaş, xətkeş, pozan və dəftər) paylanmış, iştirakçılarla söhbət və müzakirələr məktəblərin bufetlərində açılan süfrə ətrafında da davam etdirilmişdir.

# Ə.Kərimlinin yeni hoqqabazlığı



Qvami Məhəbbətoğlu

Heç kimə sirr deyil ki, dağıdıcı müxalifət antiazərbaycan dairələr tərəfindən yemlənir. Bu yem də onlara "iş" əmsallarına görə verilir. Yəni nə qədər Azərbaycan əleyhinə çox danışsalar, bir o qədər çox qazanırlar. Onların güzəranı da elə bu qazancları üzərində qurulub.

Bu prosesdə AXCP sədri Əli Kərimli lap irəli gedib. Belə ki, o, necə deyərlər, əməlli-başlı özünü tutub. Hətta oğlunun sorağı dünyanın müxtəlif ölkələrindən, bahalı otellərdən, restoranlardan gəlir. Təbii ki, bütün bunlar onun antiazərbaycan təbliğatı aparmaqla əldə etdiyi qrantlar, vəsaitlər hesabınadır. Yeri gəlmişkən, "qrant" söhbətini də ilk dəfə ölkəmizə gətirən məhz AXCP sədri Əli Kərimli olub. Bununla da özünü "əl quzusu"na döndərib. Lakin bu barədə söz düşəndə iki ayağını bir başmağa dirəyir ki, bəs onu şərləyirlər.

...Bu günlərdə hüquq mühafizə orqanlarının əməkdaşları Azərbaycan Xalq Cəbhəsi Partiyası funksionerlərinin respublikamızda, eləcə də xaricdə dövlətimizə, dövlətçiliyimizə zidd olaraq təşkil etdikləri aksiyaların maliyyələşdirilməsi üçün qanunsuz sahibkarlıq fəaliyyəti nəticəsində əldə edilmiş çirkli pul vəsaitlərinin leqallaşdırılması əməllərini törətmələrinə dair kifayət qədər sübutlar toplayıblar. Daha doğrusu, məlum olub ki, Rusiya Federasiyasında yaşayan Saleh Rüstəmov (o, AXCP-Müsavat hakimiyyəti dövründə Gədəbəy rayonunun icra başçısı olub) müəyyən şəxslərlə əlbir olaraq biznes strukturlarında çalışan Azərbaycan vətəndaşlarından ümumilikdə 412 min ABŞ dolları toplayaraq qeyri-qanuni yolla AXCP-nin funksionerlərinə - Əli Kərimli və digər şəxslərə çatdırıb. Toplanmış faktlar əsasında onların barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib. Bir sözlə, Əli Kərimlinin sponsorlarının bir neçəsi həbs edilib.

Dağıdıcı müxalifətin öndə gedəni Əli Kərimli isə öz təbiətinə uyğun şəkildə bütün bunlara özünəməxsus şəkildə don geyindirərək cəfəngiyat adlandırıb. Hətta ictimaiyyətin diqqətini bundan yayındırmaq məqsədilə digər üsullara da əl atıb. Yəni xaricdəki həmfikirlərini Azərbaycan əleyhinə aksiyalara başlamasını məqbul hesab edib. Nəticədə Avropada qaçqın statusu almaq istəyən bir qrup həmvətənlərimiz siyasi məhbus hesab etdikləri şəxslərin fotolarını götürüb BMT-nin Bondakı inzibati binası qarşısına çıxaraq 20 faiz torpağımızın işğal altında olması ilə bağlı qətnamə qəbul edən bir qurumdan, yəni BMT-dən həmin qətnamələrin icrası yox, Azərbaycanla əlaqələri dayandırmağı tələb ediblər. Onlara Əli Kərimli və onun tərəfdarları tərəfindən sadəcə bu yolun status almaq üçün indiki halda yaxşı vasitələrdən biri olduğu deyilib. Buna isə Vətənlə, onun taleyi ilə alver etməkdən başqa bir ad vermək olmaz. Hətta orada bu tədbirləri istiqamətləndirən "Əli Kərimliyə azadlıq" şüarı da səsləndirilib. Görünən budur ki, sabah Əli Kərimli bu günlərdə həbs edilmiş öz sponsorlarının hər birinin adını Avropada siyasi məhbus kimi hallandırmağa və özünün aydan arı, sudan duru olduğunu sübut etməyə çalışacaq. Belə nəsnələr isə onun üçün su içmək kimi asan bir şeydir.

Musiqiçilər arasında belə bir ifadə var: "toydan toy tutmaq". Bu məsələdə ticari bir məqam da özünü büruzə verir. Əli Kərimli də elə onlar kimi hərəkət edir. Amma o musiqiçilərdən fərqli olaraq, günahkar olduğu hər hansı bir olayı belə öz xeyrinə həll etməyə səy göstərir. Və ondan da kifayət qədər qazanc əldə edir. Buna isə xüsusi "bacarıq" lazımdır. Görünür, Əli Kərimli də belə şeylərin mahir ifaçısıdır.